

*İltimas SƏMİMİ,*
*Azərbaycan Yazıçılar Birliyin üzvü*
*Prezident mükafatçısı*

### UCALDI ŞANLI BAYRAQ

Dilində vətən sözü məhəbbəti bir ümman,
Məsləyinə and içdi neçə-neçə qəhrəman.
Torpağın keşiyində nə qar bildi, nə boran,
Həmlələri uğurlu iştikamlar yararaq.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

Qəhrəman oğullara, arxalandı bu vətən,
Pöhrələnən inamın, mayası yurd eşqindən.
Silaha sarılaraq, bu torpağa and içən,
Ər oğullar döyüşdə qəsibkara çəkdi dağ.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

Xəyalında canladı Xocalının fəryadı,
Vətən sevdalı ərlər fəqət bir ad ummadı.
Döyüşdülər sonacan, çapdılar zəfər atı,
Yağı düşmən əlindən qurtuldu ana torpaq.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

İntiqamı yamandır yurdu talan olanın,
"Vətən"- deyib, gözləri bulud –bulud dolanın.
Hesabı var, haqqı var, tökülən hər bir qanın,
Şərəfli tarix oldu bu imtahan, bu sınaq,
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

*10.05.2022.*

### GÜVƏNMƏYİN YENƏ SİZ

Nə atəşin, nə odun, nə bir közün yoxdursa,
Nə içində bir ümid, nə sevincli bir anın.
Ürəyini üşüdən dərdin, qəmin çoxdursa,
Gözlərində intizar bitəcək son gümanın.

Daş deyilsən dözəsən zəlzələyə, tufana,
Durasan öz yerində qaya kimi, dağ kimi.
Göz yaşın selə dönər, üstünü alsa duman,
Külün göyə sovrular sönmüş bir ocaq kimi.

Ürəyin dərd içində duymaz səni nadanlar,
Ağrıların əlindən həyat eşqin sönsə də.
Taleyi kəm olanın dünya boyda dərdi var,
Anlamayan anlamaz, günəş göydən ensə də.

Ey daş qəlbli insanlar, ölüm çox uzaq deyil,
Hardasa qəfil belə qırılar kəndiriniz.
Bir də dönüb baxarsız ocaq, o ocaq deyil,
Öz qolunun gücünə güvənməyin yenə siz.

*21.08.2022.*

### İNLƏYİR BƏXTİ QARA

Ayrılığa tablamayan eşqi sonsuz ürək kimi,
Bulud–bulud hey dolasan gözün dönə çeşmələrə.
Vurulasan Məcnun kimi sehr edəsən öz aləmi,
Dəniz–dəniz təbin coşa bənzəyəsən al səhərə.

Acı həsrət qənim oldun, sevgi dolu ürəklərə,
Eşqə sadiq olanların baharını payız etdin.
Gözlərinə bu yer üzü daraldıqca bezikdilər,
Dörd divara çəkilməklə sən çoxunu yalqız etdin.

Səadətə yetməyənlər bir ömürlük dərd içində,
Yanar qəlbi ocaq–ocaq qərq olduqca xəyallara.
Xəzan olmuş arzuları həyatını puç etdikcə,
Gecə-gündüz tənhalıqdan inləyər bəxti qara.

### ÜRƏKDİR AXI

Yenə bu yollarda səbrim hayqırır,
Sanki dağ yarıram təsəllim olsun.
Sözüm ürəyimi köz–köz yandırır,
Ünvan axtarıram təsəllim olsun.

Eşitmir səsimi nə qaya, nə daş,
Süzülən göz yaşım ağrılarımdır.
Üşüdür ruhumu bu payız, bu qış,
Dəniz tək çağlayan dərd –qubarımdır.

Qar kimi nesə də soyuqdur torpaq,
Üzür ümidimi bu bahar çağı.
Solur arzularım hey yarpaq–yarpaq,
Dərd duymur, köksümdə ürəkdir axı.

*25.08.2022.*

### XƏYALA DALMAQ DA BİR ACI DƏRDDİR

Göylər həsədlə baxmaq bir dərddir,
Bir yolluq gedəsən səssiz–səmirsiz.
Acı ağrılara tablamaz ürək,
Ya qaya olasan, ya da bir dəniz.

Baxan heyrətlənə əzəmətinə,
Ya uca dağ kimi başın qar ola.
Ya elə günəş tək şəfəq saçasan,
Ya da bəxt ömürlük sənə yar ola.

Alın yazısından razıyam deyən,
Rastıma çıxmayıb allanma sən də.
Hər gülən insanın min bir dərdi var,
Ürəklər sızlayır, üzlər güləndə.

Gördüyün ədalı o nazlı gözəl,
Allanıb kimsənin şirin sözünə.
O canı yanmış da bəxtəvər deyil,
Acı bir kədər var, baxsan üzünə.

Qəlblərə dağ çəkib səadət sözü.
Xoşbəxtlik anları səadət deyil,
Yetməyib arzuya bir kimsə hələ,
Bir anlıq ehtiraz məhəbbət deyil.

Xəyala dalmaq da bir acı dərddir,
Dön axan sulara çağla beləcə.
Ümidin üzülər qalasan elə,
Dərdinlə üz–üzə yoxsa hər gecə.

*26.08.2022.*

### QORUDUN SƏN MƏNİ...

Ömürdə bir ürək qırmayan sözüm,
Üzə xoş təbəssüm, ruha qanadsan.
Mənə həmdəm etdin saf könülləri,
Fəqət başdan–başa elə həyatsan.

Ömürdə bir kərəm gördüyüm şəxslər,
Şeirimi dinləyib mənə dost oldu.
İnsanı heyrətə gətirə bildin,
Bu da bir taledir, ömürdür, yoldur.

Bir az torpaq oldun, bir az od oldun,
Göyərdi içimdə yeni misralar.
Parladın ulduz tək varaqlar üstə,
Dağları titrədən səndə hünər var.

Qıymadın bir könül qırıla belə,
Bir insan inciyib ayrılsın məndən.
Mən kiməm sən elə haqqdan gələnsən,
Qorudun sən məni paxıl düşməndən.

*27.08.2022.*

### SƏSİNDƏN ELƏ BİL GÖYLƏR TİTRƏYİR

Bir az gözlərindən süzülən yaşdır,
Bir az ürəyinin kədəri, qəmi.
Yayın istisində üşüdüyün tək
Addım səslərindən küsən yol kimi,
Zaman da inciyir, vaxt da inciyir.

Alın qırışları yuxusuzluğun,
Min fikir dolaşır beynində yenə.
Bəzən gözlərində dünya bir qəfəs,
Ən adi bir söz də dəyir xətrinə.
Ürək üşüdükcə dil ağı deyir.

Ruhunu duymayır daş ürəklilər,
O ruh ki, dağların büllur çeşməsi.
Cəllad qılıncına kiriyən deyil,
Ümiddən doğulur hər bir kəlməsi.
Səsindən elə bil göylər titrəyir. .

*17.08.2022.*

### ÖMÜR DƏ BƏLLİ

Yollar ağuşuna alandan səni,
Yolların üstündə kölgən çırpınır.
Havaya qalxan toz sənin ahındır,
Ahın toza dönüb yenə hayqırır.

Köksündə ürəyin yanır beləcə,
Əllərin yetməyir ötən illərə.
Göylərə çəkilən şirin yuxudur,
Dən də vaxtsız düşür şəvə tellərə.

Yaddaşı göynədən xatirələr də,
Dəmə talesizə deyil təsəlli.
Payız yarpağı tək solur arzular,
Yüzünü aşmayan ömür də bəlli.

*18.08.2022.*

### BAXDIQCA YOLLARA TUTULUR DİLİ

Dilindən düşməyən ən şirin söz də,
Küskün ürəkləri aça bilmirsə.
Ölür bircə anda yaşamaq eşqi,
İnsanın üzünə həyat gülmürsə.

Bürünüb kölgəyə səssiz–səmirsiz,
Xəyala dalmaqda kədərdir, fəqət.
Dərdini deməyə adam yoxdursa,
Göynədər qəlbini bir acı həsrət.

Küskün baxışlardan bilinir yenə,
İnsanın çəkdiyi qəmi, nisgili.
Açılan hər səhər təsəlli deyil,
Baxdıqca yollara tutulur dili.

*19.08.2022.*

### İNSAN

Gözlərinin qəmindən,
Əllərinin
Soyuqluğundan
Duydum ürəyinin nisgilini.
Alın yazın bir az yağışlı payız,
Bir az da qarlı qış kimi
Üşüdür ruhunu
Söz–söz, sətir–sətir.
Kiri dedilər,
Kiriyə bilmədin.
Sən bir ovuc torpaq,
Bir parça daş deyildin.
Dərd əlindən köz–köz yanan
İnsan idin, insan.

*17.08.2022.*

### SƏNƏ UNUTQAN DEDİLƏR

Bu payız küləyi
Saçlarına bir sığaldır.
Yarpaqların pıçıltısı,
Dənizdəki dalğaların
Coşğun səsi
Bəlkə, illərcə unutduğun
Xatirələri sənə
Xatırlatmaq istəyir.
Doğmaların adını belə
Unutmuşdun.
Çiyinlərində
Tabut–tabut daşıdığın
Qayğıların görünmür deyə,
Sənə unutqan dedilər.

*21.08.2022.*

### YAŞAMAQ İSTƏYİR

Ulduzlar altında
Bu yer üzündə bir səs
Özünü daşlara çırpır.
Ağacların səbri çatmır,
Yollar dözümsüz,
Torpağın yuxusu qarışıb.
Əyninə kəfən geyinmiş
Bu yuxu kiminkidir?
Sahibi bəlkə də
Çoxdan unudulub.
Heç kimin yadına düşmür.
İçində intihar etmiş arzular
Susuz səhraların qum dənəsidir.
Göylərə açılan əllərin
Elə bil
Ümidi tamam
Üzülüb.
Özünü daşlara çırpan
Səs kimi
Kimsənin yaddaşında
Yaşamaq istəyir. .

*27.08.2022.*